**Azərbaycan Respublikasında fəaliyyət göstərən ekoloji yönümlü qeyri-hökumət təşkilatlarının Azərbaycan ərazilərində qeyri-qanuni məskunlaşmış ermənilərin Laçında və ətraf ərazilərdə ekoloji terror törətməsi ilə bağlı beynəlxalq təşkilatlara**

**MÜRACİƏTİ**

Biz, Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları olaraq Azərbaycan ərazilərində dünyanın müxtəlif ölkələrindən gətirilib, qeyri-qanuni məskunlaşdırılmış erməni əhalisinin son günlər Laçın rayonu və ətraf ərazilərdə meşə yanğınları törətməsi ilə bağlı narahatçılığımızı Sizə bildiririk.

Məlumat üçün qeyd edək ki, 10 noyabr 2020-ci il tarixində Üçtərəfli bəyanatın müvafiq bəndlərinə uyğun olaraq Laçın rayonu və onun ətrafında olan ərazilər Azərbaycan Respublikasına təhvil verilməli idi. Bu proses hazırda yekunlaşmaq üzrədir və 2022-ci ilin avqust ayının sonuna kimi həmin ərazidə qanunsuz məskunlaşmış insanlar kimliyindən asılı olmayaraq bölgədən çıxarılmalıdır.

Laçın rayonu və ətraf kəndlərdə 30 ilə yaxın müddətdə qanunsuz yaşamış bu şəxslər ərazini tərk edərkən ətrafdakı uzun əsrlik meşələri yandırır və ekoloji terror törədirlər. İşğal dövründə Topxana meşələrindən başlayaraq Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər, Şuşa meşələrini yandıran, Üçtərəfli bəyanatdan sonra Kəlbəcər və digər ərazilərimizdən çıxarkən meşələri, evləri, tarixi-mədəni abidələri məhv etməklə kifayətlənməyən ermənilər indi də Laçın ərazisindəki meşə ərazilərimizi yandıraraq ətraf mühitə qəsdən zərər vururlar. Ən dəhşətlisi isə budur ki, yerin üstünü vandalcasına məhv etdikləri az deyilmiş kimi yerin altını da başdan-başa minalarla çirkləndirirlər.

Bu gün Azərbaycan torpaqlarında törədilən bu çirkin əməllər təkcə Azərbaycan xalqına qarşı deyil, külli-bəşəriyyətə və insanlığa qarşı yönəlmiş cinayətdir.

Azərbaycan Respublikası ekoloji tarazlığın qorunması, vətəndaşlarının sağlam ətraf mühitdə yaşamasının təmini üçün daim çalışır və bu prosesdə də qeyri-hökumət təşkilatları yaxından iştirak edir.

Biz bir qrup vətəndaş cəmiyyəti təşkilatları olaraq erməni əhalisinin Laçın rayonu və bütövlükdə Qarabağ ərazilərində apardıqları ekoloji terroru pisləyir və beynəlxalq təşkilatlardan bu məsələ ilə bağlı dəyərləndirmə aparmalarını, eləcə də bu qeyri-insani əməllərin beynəlxalq səviyyədə qınanmasına dəstək göstərmələrini xahiş edirik.

Müraciəti imzalayırlar:

1. Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti Umud Mirzəyev,
2. “Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması” İctimai Birliyinin sədri Azər Allahverənov,
3. "Sağlam İnkişaf və Maarifləndirmə" ictimai birliyinin sədri Anar Xəlilov,
4. "Ekoleks" Ekoloji Hüquq Mərkəzi ictimai birliyinin sədri Sevil İsayeva,
5. "Sudan İstifadə sahəsində Mütəxəssislər" ictimai birliyinin nümayəndəsi Pərvanə Xıdırova,
6. "Rüzgar" Ekoloji İctimai Birliyinin sədri İslam Mustafayev,
7. Biosfer İctimai Birliyinin sədri Qorxmaz İbrahimli,
8. Eko Aləm İctimai Birliyinin sədri Sevil Yüzbaşeva,
9. “Sağlam Həyata Doğru" Ekoloji ictimai birliyinin sədri Sadiq Həsənov,
10. Ekoloji Maarifçilik və Monitorinq ictimai birliyinin sədri Qəmzə Yusubova
11. "Sosial - İqtisadi və Ekoloji İnkişaf" ictimai birliyinin sədri Rahilə Mehtiyeva
12. Yaşıl Dünya Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli,
13. Rəqəmsal İnkişaf İctimai Birliyinin sədri Könül Ağayeva,
14. "Səma və Eko" Sosial İqtisadi İnkişafa Yardım İctimai Birliyinin sədri İradə Həsənova,
15. “Ekoloq-2010" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Səlim Balayev,
16. "Ekoloq Ətraf Mühitin Qorunmasına Yardım ictimai birliyinin sədri Rübabə Hüseynli,
17. "Səyyahlar" Təbii Sərvətlərin və Ətraf Mühitin Araşdırılması və Tanıdılması ictimai birliyinin sədri Elsevər Cəlilov,
18. Ekoloji Maarifçiliyə Yardım İctimai Birliyinin sədri Tarverdi Hüseynov